





**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

*Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası*

# Fənnin adı:Əczaçılıq tarixi və deontologiya

Mövzu:Milli əczaçılığın qədim və orta əsr inkişaf tarixi

(Mühazirəçi:dos.Naibov N.M)

# Azərbaycan MEA-nın Əlyazmalar İnstitutunda 363 orta əsr tibb əlyazması mühafizə olunur, bunlardan:



- 222-si farsca,
- 71-i ərəbcə.
- 70-i türkcə yazılıb

***Əlyazmalar X-XVIII əsrlərə aiddir. İndiyədək 40-a yaxa orta əsr qaynağı tədqiq edilmişdir.***

***Onların arasında həm orta əsr Azərbaycan alimlərinin əsərləri,***

***həm də vaxtilə Azərbaycanda geniş şöhrətə malik olmuş əcnəbi müəlliflərin kitabları vardır.***

***Azərbaycanda mövcud olmuş sağlamlığın qorunması və sağlam həyat tərzi konsepsiyası aşkar edilib və öyrənilmişdir. Bəzi fərqlərə baxmayaraq, nəzəriyyənin müddəaları eynidir və ümumiləşdirilmiş şəkildə belə səciyyələndirə bilər:***

***1. Ətraf mühitin (havanın, suyun, torpağın) qorunması;***

***2. Yaşayış yerinin məqsədəuyğun seçilməsi və yaşayış binalarının düzgün tikilməsi***

***3. Sağlam həyat tərzi və xəstəliklərin profilaktikası (düzgün qidalanma, bədən tərbiyəsi, əmək və istirahət rejimi, emosiyaların tənzimlənim tənzimlənməsi, orqanizmin ziyanlı maddələrdən təmizlənməsi);***

***4. Xəstəliklə müalicəsi (tibb və əczaçılıq elmləri).***



Əczaçılıq da sağlamlığın qorunması nəzəriyyəsinin ayrılmaz qolu olub. Orta əsr Azərbaycan təbabətində istifadə olunan 724 növ dərman bitkisinin, 150 heyvanın, 115 mineralın növ mənsubiyyəti və müasir elmi adları müəyyənləşdirilmiş, onlam siyahısı tərtib edilmişdir.
Hal-hazırda 724 növ bitkidən 122-si respublikamızın ərazisində yayılmışdır. Onların 256-sı müasir tibb elmində istifadə olunmur və unudulmuş dərman bitkiləri sayıla bilər.



***Mənbələrin verdiyi məlumata görə Şərq alimləri tibbin ən yadda qalan səhifələrini XVI-XVII əsrlərdə yaratmışlar. Bu mənbələrdə xəstəliklər haqqında üsulları barədə irəli sürülən fikirlərin təcrübədə özünü doğrultduğu dəfələrlə qeyd edilir. Unutmaq lazım deyil ki, bizim əcdadlarımız öz xəstəliklərini məhz həmin dövrdə mövcud üsullarla müalicə etmiş və əksər halda xəstəliyə qalib gələcək öz səhhətlərini bərpa etmişlər.***

***Hazırda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunda Şərq təbabətinə aid ərəb, fars, türk, azərbaycan dillərində yazılan və saxlanılan tibbi əsərlərin bir çoxunun müəllifi və ya mirzəsi azərbaycanlılar olub. Bunlardan Süleymanqulu bəy, İbn Əttar, Məşədi Mir-Baba, İbn Mir-Mehdi, Qasım bəy, Şükrullah Şirvani, Əhməd Çələbi, Ağa Seyid Təbib Şirazi və başqaları bütün Şərqdə tanınırdı. Orta əsrlərdə Şərqdə müxtəlif xəstəliklərin müalicəsi üçün otlar və toxumlardan, köklərdən və meyvələrdən geniş istifadə edilirdi. Xüsusi şəxslər dərman bitkilərinin yığılması, qurudulması, saxlanılması və ticarəti ilə məşğul olurdular. Mineral maddələrdən, müxtəlif yağlardan, miss kuporusundan, kükürddən, neft məhsullarından, mumdan, baldan geniş istifadə olunurdu. Bütün bunların ayrı-ayrı ölkələrdə necə istifadə və inkişaf etdiyinin öyrənilməsi son dərəcə maraqlı və zəruridir. B.e.ə. III-V əsrlərdə Şərqin ən zəngin ölkələrindən biri olan Azərbaycanda feodal quruluşu yaranmışdır.***

# Qədim Azərbaycanın məşhur şair və mütəfəkkirlərinin yaradıcılığında tibbi dünyagörüşü

- ***X-XIII əsrlərdə elmin bütün sahələrində əldə edilən böyük nailiyyətlər sonrakı elmi tərəqqinin əsasını təşkil etmişdir. Bütün Şərqdə olduğu kimi Azərbaycanda da elmin bütün sahələri poeziya, fəlsəfə, nücum, memarlıq, təbabət və dərmanşünaslıq, riyaziyyat, həndəsə, ilahiyyat, hüquq və s. inkişaf etmişdir.***
- ***Orta əsr mənbələrinə əsaslanan Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Qətran Təbrizi fars leksikoqrafiyası tarixində fars dilinin ilk izahlı lüğətinin yaradıcısı olmuşdur. Bu barədə "Lüğəti-fürs" ("Fars lüğəti") müəllifi, şair və tərtibçi Əsədi Tusi (XI əsr), "Sihahül-fürs" müəllifi Məhəmməd Naxçıvani (XIII əsr) və başqaları yazmışlar.***
- ***Şərqin mərkəzi şəhərlərində /Qahirə, İskəndəriyyə, Bağdad, Təbriz, Səmərqənd, Buxara, İsfahan/ təhsil almış alim və mütəxəssislər elmi əməkdaşlıq edirdilər. Bunlardan Əbül-üla Gəncəvi, Fələfi Şirvani, İbrahim İbn Əli Naccar Xaqani, İbn Yusif, Şeyx İlyas, Nizami Gəncəvi, Qətran Təbrizi, İmaməddin Nəsimi, Ömər Osman oğlu və başqaları dünya mədəniyyət xəzinəsinə daxil olmuşlar.***
- ***Məşhur İran şairi Nasir Xosrov Ələvi adım çəkdiyimiz "Səfəmamə"sində Qatranın lüğət üzərində iş prosesini belə təsvir edir: "Təbrizdə mən Qətran adlı bir şairlə görüşdüm. O, avazla yaxşı şeir oxuyur, ancaq fars dilini pis bilirdi. O, Dəqiqi və Mənciqin divanlarını mənə gətirib, avazla oxudu və anlaşılmayan sözləri izah etməyimi xahiş elədi. Sonra mənim izahatlarımı qeydə alıb, öz şeirlərini oxudu."Əksər alimlər Nasir Xosrovun bu fikirlərini onunla izah edirlər ki, fars dili Qətramn ana dili deyildi və o, farsca yazan ilk Azərbaycan şairi olub.***

*Azərbaycanın qədim yurdu olan Şamaxıda dünyaya gələn böyük mütəfəkkir şair Xaqani Şirvaninin geniş ədəbi fəaliyyətində təbabət də geniş yer almışdır.O, böyük alim və təbib olan əmisi Ömər Osman oğlunu öz ustadı kimi yad edir, təbabət və dərmanşünaslığı da ondan öyrənmişdir.*
*Xaqani bir şerində əmisi haqqında danışarkən yazır: "O, mənə çox asan bir yolla başa saldı ki, "bir", "iki","üç","dörd","beş" nə deməkdir."Beş"-hissiyyat üzvləridir, "dörd"-dünyadakı başlanqıclar-su- hava, od və torpaqdır, "üç"-qeyri-üzvi təbiətdir, "iki"-cism və ruhdur "bir"-Allahdır." Görünür, bu cür şəfa ocaqları Azərbaycanda çox populyar olub. Belə ki, "Məhsəti və Əmir Əhməd" dastanında Gəncədək "bimarana" adlanan xəstəxana təsvir olunur. Orada xəstələr həkiımr qəbuluna düşmək üçün növbəyə dururlar.*



# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA YARADILMIŞ TƏDRİS MÜƏSSİSƏLƏRİ, ELM EVLƏRİ

*Çəndişapur akademiyası 3 fakültədən ibarət idi. Xəstəxana ilə birlikdə tibbi fakültə, rəsədxanası ilə birlikdə astronomik fakültə və riyaziyyat fakültəsi. Burada əsasən bir neçə nəsi ərzində həkim hazırlanan təbabət fakültəsi xüsusi nüfuza malik idi.*

*Çəndişapur akademiyasında ancaq dərmanların hazırlanması və saxlanılması ilə məşğul olan xüsusi mütəxəssislər, dərmanların saxlanılma və buraxılma yeri kimi aptek var idi. Lakin bu apteklər qapalı idi və onlar ancaq varlı təbəqəyə xidmət göstərirdi. Şəhərlərdə çoxlu sayda ətirli və dərman bitkiləri əkilmiş aptek bağları da vardır. Çəndişapur akademiyasındakı klinikada narkotik və ağrısızlaşdıran vasitələr, müxtəlif stimulyatorlar tətbiq edilirdi. Kafur ürək və yüngül xəstəliklərdə geniş tətbiq olunurdu. Bu akademiyanın həkimlərinə dərmanın qəbul edilməsinin müxtəlif üsulları məlum idi. Parenteral üsuldan başqa onlar bəzi narkotik vasitələri ciyərə üfürmə yolu ilə daxil edirdilər. Dərmanların xaricə qəbulu (məlhəmlər, ovxalama, islatma) da geniş yayılmışdır. Onlar arasında ən tanınmış kitab dərmanşünaslıq barədə idi. Hələ 869-cu ildə Çəndişapur akademiyanın başçısı Sabun İbn Saber birinci məşhur fannakopeyam yazdı. Bu akademiyanın alimləri zəhərlər, diaqnoz və terapiyada zəhərlənmə hallarının müalicəsini göstərməklə toksikologiya haqqında 22 tomdan ibarət ümumi kitab nəşr etdilər. Çəndişapur akademiyasında Bərmanların hazırlanması və tətbiqi məsələlərinin müzakirə olunduğu tibbi konqresslər keçirilirdi.*

Orta əsrlər dövrü VII-XIX əsrləri əhatə edir. XIII-XIV əsrlərdə müsəlman Şərqi ilə Qərb ölkələrinin ticarət əlaqələrinin möhkəmlənməsində Venesiya tacirləri xüsusi rol oynayırdılar. Azərbaycandan onlar ədviyyatlar (istiot, mixək, darçın, zəncəfil, cövüz), qiymətli daşlar aparırdılar. Bu dövrdə böyük irriqasiya tədbirləri, tikinti, şəhərlərin abadlaşdırılması, çoxlu sayda müalicəxanalar, elm və mədəniyyət mərkəzlər yaradılmışdır.

Orta əsrlərdə Azərbaycanda yerləşən islami akademiyalardan Şamaxı, Təbriz, Ərdəbil, Marağa, Urmiyə və s.-ni göstərmək olar Şamaxı akademiyasını ilk növbədə qeyd etmək lazımdır. Azərbaycanda ilk akademiya sayılır. Onu təşkil edən məşhur Azərbayçan həkimi və alimi Ömər Osman oğlu idi. O özü həkim olduğu üçün, akademiyanın nəzdində böyük tibbi məktəb təşkil edir. Burada bir çox əcnəbi alimlər işləyirdilər.

Orta əsrlərin ikinci yarısında (XIII əsr) dahi Azərbaycan tarixçıs reformatoru və eyni zamanda məşhur həkimi Rəşidəddin Təbrizdə ikinci böyük islami elmlər akademiyasını təşkil edir. Burada da dünyanın m' təlif yerlərindən toplanmış alimlər işləyirdilər. Hətta Çindən, Misir Hindistandan və Qərb ölkələrindən bura mütəxəssislər gəlir və onlar bütün lazımi şərait yaradılırdı.

*Elxanilərin saray həkimi və vəziri olmuş Rəşidəddin, XIV əsrin əvvəllərində Təbrizdə "Rəbi-Rəşidi" şəhərciyi və "Darüş-Şəfa ("Şəfa evi") adlı yaratdığı elmi mərkəz tədris, tibb, elmi müəssisələri, o cümlədən rəsədxananı birləşdirən bütöv bir şəhərcik idi. "Darüş-şəfa" müasir Universitetlərə bənzəyən ali məktəb (mədrəsə) idi. Orada Azərbaycan alimləri və müəllimləri ilə yanaşı ayrı ölkələrdən-Çindən, Hindistandan, Suriyadan və Misirdən dəvət olunmuş mütəxəssislər də çalışırdı. "Daruş-Şəfa"-nm kitabxanasında İrandan, Hindistandan, Misirdən, Çindən, Rritdən və başqa ölkələrdən gətirilmiş on minlərlə əlyazma kitabi vardı. Buraya təbiətşünaslığı, fəlsəfəni, tarixi, tibbi, astronomiyanı, məntiqi öyrənmək üçün hər il Şərqin müxtəlif ölkələrindən 6-7 min tələbə gəlirdi.*



***Rəşidəddin***

*Azərbaycanın o zamanki akadeiyalarının sırasında Təbriz şəhərində dahi Azərbaycan münəccimi və həkimi Nəsirəddin Tusinin təşkil etdiyi böyük akademiya xüsusi yer tutur. Burada müxtəlif fənnlərin mütəxəssisləri iştirak edirmişlər. Tibbi sahəyə o vaxtki görkəmli Azərbayçan həkimi Əbdülməcid Təbib başçılıq edirdi. Maraqlıdır ki, onun əlyazma kitablarından biri olan "Dərmanlarla -müalicə" əsəri Respublika Əlyazmalar Fondundadır. Burada sistemlər üzrə xəstəliklərin müalicəsi diqqəti xeyli cəlb edir. Ruhi xəstələrin xəstəxanada yerləşdirilib müalicə edilməsində onun böyük əməyi olmuşdur.*



***Nəsrəddin Tusi***

***Bir çox müasir alimlərin fikrincə, astronomiya, riyaziyyat, həndəsə, mətlərinin yaranmasın Tusinin rolu olduqca böyükdür. Tusi Xəyyamn riyaziyyat haqqındakı fikirl əri ni inkişaf etdi başa çatdırır. Tusinin edi fikirləri onun məşhur ə olan "Əxlaqi-Nasin' Rəsədxana kitabında cəmləşmişdir. Nəsirəddin Tusinin təşkil etdiyi akademiyada baytarlığa da xüsusi şöbə ayrılmışdı. Bu dar alimin "Fərəcnamə" əsəri bu məsələyə həsr edilmişdir. Tusi və om tələbələrinin mədənlər, qiymətli daşlar və s. haqqında çalışmaları da  diqqətə layiqdir. Tusinin "Cavahimamə" əsəri elə bu məsələləri əhatə edir. Nəsirəddin Tusinin təşkil etdiyi alimlər yığıncağı, müasir dildə desək, akademiyanın rəyasət heyəti Təbriz şəhərində yerləşirdi.***



***Rəsədxana***

# *Orta əsrlərdə Müsəlman Şərqində qatadılmış elim akademiyaları və tədris mərkəzləri*

| № | Ölkənin adı | Mədrəsə və tədris müəssisələri, akademiya | Tarix və təşkilatçı |
|---|---|---|---|
| 1 | Azərbaycan Təbrizdə | «Dər-əs-Şifa» | XIV əsr Rəşidəddin |
| 2 | Azərbaycan | «Dəril-Şəfa» | XVII əsr Mahmud ibn İlyas |
| 3 | Xuzestan, Düzfül şəhəri | Çündişapur Akademiyası | VI-VII əsr Dəməşk və Əmeşirvan |
| 4 | İraq – Bağdad | Bağdad Akademiyası | VIII əsr Zəkəriyyə, Razi, Cabir |
| 5 | Azərbaycan Həmədan | Okbatan Akademiyası | IX əsr İbn Sina, İsmayıl Curcani |




***Orta əsrlərdə böyük botanik və əczaçı İbn Baytar 1400-ə yaxın bitki və dərman təsvir edən kitabları ilə XVI əsrə qədər elm mənbəyi olmuşdur.***

Dərmanşünaslıq və farmakologiya sahəsində ilk tədqiqatçılardan biri X əsr şərqinin görkəmli həkimi, dərmanşünası və farmakoloqu Əbu Mənsur Müvəffəq ehtimala görə Şimali Azərbaycandan olmuş və 980-ci ildə ilk farmakologiya kitabını yazmışdır. Mivəffəgın və ya Əbu Mənsurun X əsrin sonlarında yazdığı «Farmakologiyanın əsasları haqqında elmi əsər»i diqqətə layiqdir. Əbu Mənsurun kitabında 446 bitki və 44 heyvan mənşəli dərmanların təsiri haqqında izahat verilmişdir. Müəllif dərmanların təsirini bədənin fərdi xüsusiyyətlərindən, yəni bədənin isti, soyuq, quru və nəmliyindən asılı olduğunu göstərir. Əbu Mənsurun farmakologiya kitabı 1892-ci ildə Derpt şəhərində alman dilində nəşr edilmişdir. Bu kitabın mütərcəmi və müəllifi Azərbaycanlı həkim Mirzə Əbdülxalıq Axundov olmuşdur. Bu nəşrə görə o təbabət doktoru elmi adını almışdır. Müvəffəqin kitabının müxtəsər nüsxəsi fars dilində hicri 447-ci ildə, miladi 1055-ci ildə yazılmış və hazırda Vyana kitabxanasında saxlanılır.



Əbu Mənsur Müvəffəq

*Axundov Əbdülxalıq Hacı Abdulla oğlu 1866-cı ildə Bakıda anadan olmuşdur. Bakıda gimnaziyanı bitirdikdən sonra Derpt /Tartu/ universitetinin tibb fakültəsinə daxil olmuş və oranın göz hakimliyi şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir.*

*Daha sonra atasının arzusu ilə Alaniyaya gedib Erlanger Universitetinin tibb fakültəsində oxuyub can həkimi diplomunu da almağa müvəffəq olmuşdur. O bu illər ərzində qədim yunan, latın, alman, fransız, rus, fras, və ərəb dillərini mükəmməl öyrənə bilmişdir.*



***O dövrlərdə Azərbaycanda məscidlərin mədrəsələrində, orta tibb müəsiissələrində, darulfununlarda /universitetlərdə/ isə həkimlər hazırlayırdılar. Bu məktəblərdə mütəxəssis hazırlayarkən onların şəxsiyyət kimi formalaşmalarına da xüsusi diqqət yetirirdilər. Təlim-tərbiyə, elm və helm, yəni deontologiyanı, etik rəftar qaydalarını öyrədirdilər. Ona görə də istər din xadimləri, istərsə həkim, filosof, tarixçi, memar, riyaziyyatçı, ədəbiyyatçı və sair mütəxəssislər öz sənətləri sahəsində bilikli, elmli, salim, təvazökar olmaqla sənət və vətəndaşlıq borclarım şərəflə yerinə yetirirdilər. Onların adları da şərəflə çəkilirdi. Təsadüfi deyil ki, həkim, hakim və filosof el arasında «həkim» adlanırdı. Bunun səbəbi keçmiş alim və həkimlərin insanların azad, sağlam yaşamaları və əql ilə iş görmələri üçün Qurani Kərimin tələblərinə müvafiq fəaliyyət göstərmələridir.***

- ***IX-XII əsrlər*** ***tibb elminin xüsusilə təşəkkül tapdığı və inkişaf etdiyi dövrdür. Məşhur təbabət xadimi filosof Məhəmməd Zəkəriyyə-ər-Razi /ərəb/, Əbu Mənsur Müvəffəq /azərbaycanlı/, Əbu Reyhan Biruni, Əbu Səhl Məsihi Cürcani, / İbn Sinanın müəllimi/, Əbu Əli ibn Sina /tacik 980-1037/, Ömər Osman oğlu /azərbaycanlı/ və b.göstərmək olar.***

- ***IX-XII*** ***/miladi/ əsrlər şərqdə təbabət elminin təşəkkül dövrü idi. Bu dövrün görkəmli alimlərindən biri də IX əsrin əvvəllərində yaşamış Əbülhəsən Əli Rəbbani Ət-Təəbari idi. Ərəb dilində olan «Firdovsi-ül- Hikmət» kitabının /236 h 850 m./ yazılması üçün müəllif yunan və Şərq ədəbiyyatından istifadə etmişdir.***

**Ömər ibn Osman Kafiəddin** - mənşəcə Azərbaycan türklərindən olan məşhur təbib-alim. Şamaxıda Sağlamlıq evi yaradaraq orada fəaliyyət göstərmiş, oradan şöhrəti bütün Şərqə yayılmışdır.

Ömər Kafiəddinin təqribən 1080-ci ildə Şirvanın paytaxtı Şamaxı şəhərində anadan olduğu ehtimal edilir. Bir neçə dil bilir, fəlsəfə, ilahiyyat, astronomiya, riyaziyyat, təbabət, kimya və farmokologiya elmlərinə vaqif olmuşdur, mədrəsədə dərs deyirdi. Xaqani onun haqqında yazırdı: «Əgər əmim qoymasa, məni heç şeytan da yolumdan azdıra bilməz. O, mədəniyyət və elm adamıdır. Su günəşin təsiri altında yüksəkliyə qalxan kimi mən də onun sayəsində ucalmışam. O, riyaziyyatın, fəlsəfənin dərin bilicisidir, demək olar ki, o, öz dövrünün Ərəstunudur.»